Əziz dost, mən sənə böyük  ümidlə yazıram ki, bir gün görüşüb yazdıqlarımın eynisini sənə söyləyərəm.

Əvvəla deyim ki, adım Cemmadır, 19 yaşım var. Məktubumu oxuyanda və fikrində məni cızmaq istəyəndə sadəcə məni qıvırcıq saçlarla təsəvvür elə. Elə mənməm- qıvırcıq Cemma. İstəyirəm ki, bir şüy biləsən. Mənim azərbaycanlı gözəl döstlarım var. Nə din nə milli mənsubiyyət nə də yüzlərlə kilometr məsafəsi yaxşı dost qalmaq üçün maneə olmayıb. Bilirəm mənim kimi sən də inanırsan ki, biz sülh şəraitində yaşaya bilərik. Gələcəyimiz məndən və səndən və bizim kimi gənclərdən asıllıdır. Bilirsən, şüurlu həyatımda həmişə istəmişəm ki, belə bir layihədə iştirak edəm, indi bu imkan var və mən böyük ümid və sevgi ilə sənə yazıram. Mən sənin kimi bir gəncəm, sülh bərqərar etmək arzusunda olan bir gənc. Məsələnin kökü, səbəblərini anlamaq üçün tarix səhifələrini uzun-uzun oxuyub araşdırmışam. Bir adi gerçək anlamışam ki, güclə bu savaş heç bir zaman bitmyəcək. Dərk etmək və dinləmək üçün bizə insani adı duyğular- sevgi, insaf, şəfqət lazımdır. Məsələnin həlli bax budur. Bunlar hər birimizdə olan insani duyğular və xüsusiyyətlərdir. Qeyd etdiyim kimi, böyük ümidim var ki, mən, sən və digər gənclər də sülh içində yaşamaq arzusundayıq. Mən də elə sənin kimi inanıram. Arzumu bölüşmək üçün minnətdaram. Əminəm bir gün aramızda duran tikanlı məftilləri biz çiçəkləndirəcəyik...

Cemma